

## RAMİZ İSMAYIL

### XOCALI

.Azğın ermənilər doxsan ikidə
"Yazdılar" Xocalı faciəsini.
Boğdular milləti qan dənizində,
Güllələr batırdı körpə səsini,
Quran tapılmadı məhkəməsini.

Torpağa qırmızı qar yağmışdımı?
Yoxsa qar qarışıq qan yağmışdımı?
Fələk görk eləyib qarğamışdımı,
Yaralı Xocalı yanırdı o gün!
Qarılı, qocalı yanırdı o gün!

Qız-gəlinlər ana-hüryan qaçırdı,
Dondursa da şaxta, boran, qaçırdı.
Vay-şivən qoparıb hər yan qaçırdı,
Qarda, qiyamətdə azdılar yolu,
Erməni bildilər qaralan kolu.

Bəşər hələ belə zülüm görməyib,
Belə qatil, belə zalım görməyib.
Belə qətl, belə ölüm görməyib,
Nə idi günahı millətin, Allah?
Çəkdilər bu qədər zilləti, Allah!

...Millətə şair də, söz də gərəkdir,
Duyan ürək, görən göz də gərəkdir.
Nə vaxtsa gücünü göstərəcəkdir,
Düşmənin başını əzəcək xalqım,
Dik tutub başını gəzəcək xalqım!

### TAPMAYIB HƏLƏ

Tara aşiq olub, saza bağlanıb,
Qışa könül verib, yaza bağlanıb.
Ruhunu oxşayan qıza bağlanıb,
Ramiz gəzdiyini tapmayıb hələ.

Kərəm də, Əsli də, Leyli də görüb,
Məcnuna tən gələn dəli də görüb.
Almazı, yaqutu, ləli də görüb,
Ramiz gəzdiyini tapmayıb hələ.

Vətən torpağının barını sevib,
Zirvədə xarlayan qarını sevib.
Üzündən nur yağan qarını sevib,
Ramiz gəzdiyini tapmayıb hələ.

Dünyanın dərdini, qəmini tapıb,
Dərdlə qovuşmağın çəmini tapıb.
Nə qədər dərd varsa cəmini tapıb,
Ramiz gəzdiyini tapmayıb hələ.

Səadət axtarıb, sədaqət gəzib,
Haqqı soraqlayıb, həqiqət gəzib.
İnsanı ucaldan təriqət gəzib,
Ramiz gəzdiyini tapmayıb hələ.

Əhdə vəfa edib, sözə tən gəlib,
Ağarmış saçına təzə dən gəlib.
Qayıdıb dünyaya təzədən gəlib,
Ramiz gəzdiyini tapmayıb hələ.

### DAĞ ADAMLARI

Ay ötər, il keçər, fəsil dəyişər,
Zaman dəyişdikcə nəsil dəyişər.
Allah eləməsin əsil dəyişə -
Niyə dəyişdiniz, dağ adamları?!

Bu elləri duz-çörəkli görmüşəm,
Ərənləri şir biləkli görmüşəm.
Saf arzulu, xoş diləkli görmüşəm,
Niyə dəyişdiniz, dağ adamları?!

Çəkirsiniz çörək dərdi, un dərdi,
Kasıblıqmı üzünüzü döndərdi?
Tanrı sizə bir bəlamı göndərdi,
Niyə dəyişdiniz, dağ adamları?!





Boylanıb yenidən ötən çağlara,
Rəhm eləyin ölənlərə, sağlara.
Sizi and verirəm ulu dağlara,
Niyə dəyişdiniz, dağ adamları?!

Yurdun qibləgahı, piri idiniz,
Ay işığı, günəş nuru idiniz.
Aydan arı, sudan duru idiniz,
Niyə dəyişdiniz, dağ adamları?!

Mən Ramizəm, sizdən ayrı neyəm ki,
Qürbət eldə nalə çəkən neyəm ki.
Gəlmişəm ki, yalvaram ki, deyəm ki,
Daha dəyişməyin, dağ adamları -
Niyə dəyişdiniz, dağ adamları?!

### BƏNÖVŞƏ

*(yanvarda bənövşə görmüşəm)*

Nə tez oyanmısan, nə tez açmısan,
Hələ çox qalıbdır yaza, bənövşə.
Ayaz vurar, göy ləçəyin büzüşər,
Dözməzsən şaxtaya, buza, bənövşə.

Qurbani əlləri dizində qaldı,
Vurğunun nisgili gözündə qaldı.
İlyasın heyrəti üzündə qaldı,
Baxdı kol dibində izə, bənövşə.

Bahara tələsmə, hələ vaxta var,
Hələ qar-sazaq var, hələ şaxta var.
Tez açarsan, deyərlər ki, baxtı var,
Bədnəzər gətirər gözə, bənövşə.

Novruzgülü səni görüb qımışdı:
-Deyin bənövşəyə hələ ki, qışdı.
İncə vücuduna necə qıymışdı,
Möcüzə göstərdi bizə bənövşə.

Bu hökmü, qərarı Tanrı veribdi,
Şair qəlbi sənin kimi zərifdi.
Görəndə ki, naşı əllər dəribdi,
Ramiz daş deyil ki, dözə, bənövşə.

22905

### "GECƏ-GÜNDÜZ GÜLÜ"

Göy ləçəkli gözəl, göyçək gül gördüm,
Gündüz açılmışdı, büküldü gecə.
Şəbnəmmi çaşdırdı, mehmi qorxutdu,
Ya şehmi üstünə töküldü gecə?

Bu zərif məxluqun sehrinə düşdüm,
Ayazmı küsdürür, bezdirir onu?
Gündüz günəş nuru xumarlandırır,
Gecələr köynəyi qızdırır onu.

Özünə bax, nazına bax, ilahi,
Aydan, ulduzlardan yaşmanır, bəlkə?
Bu incə gözəlin, nəcib varlığın,
Bir xəfif küləkdir düşməni, bəlkə?

Təbiətin möcüzəsi azdımı,
Elə biri bu gül imiş, sən demə.
Gül sevən bir gözəl bildi adını,
"Gecə-gündüz gülü" imiş, sən demə.

### QADIN VAR...

Qadın var, tükənməz hirsi, havası,
Qurtarmaz qovğası, bitməz davası.
Qadın var Məkkədir yurdu, yuvası,
Dərdini-sərini evdə gəzdirər.

Qadın var rəml atan, dua yazandı,
Qadın var ev yıxan, quyu qazandı.
Dünya beləsinə dolu qazandı,
Əlini üzdə yox, dibdə gəzdirər.

Qadın var mələk də dindirə bilməz,
Fələk də sözündən döndərə bilməz.
Qadın var, toyuğa dən verə bilməz,
Qadın var ərini "CİP"də gəzdirər.

Qadın var, mətanət, dəyanət rəmzi,
Qadın var, bədniyyət, xəyanət rəmzi.
Qadın var, siyasət, bəyanət rəmzi,
Döşünə döyəni cibdə gəzdirər.

Qadın var, el ona baş əyər, keçər,
Qadın var, el üçün yaşayar, keçər.
Qadın var, el yükü daşıyar, köçər,
Qadın var yükünü ipdə gəzdirər.

### KİŞİ

Nə geyimlə, nə bəzəklə tanınır,
Kişi olmur şalvar geyən hər kişi.
Duz-çörəklə, düz ürəklə tanınır,
El gözündə ucaldıqca ər kişi,
Kişi olmur şalvar geyən hər kişi.

Bağ becərib, yer şumlayıb əkmirsə,
Əkdiyinin zəhmətini çəkmirsə,
Zəhmət çəkib alın təri tökmürsə,
Xəcil olub çox tökəcək tər kişi,
Kişi olmur şalvar geyən hər kişi.

Sahibkardı - milyon-milyon səhmi var,
Bilmirsən vergidir, yoxsa fəhmi var.
Səhmi varsa, fəhmi varsa, zəhmi var,
Zəhmi varsa, nər kişidi, nər kişi,
Kişi olmur şalvar geyən hər kişi.



Azərbaycan Milli Kitabxanası

Girər tez-tez dondan-dona, dəyişər,
Bilməz bacı, bilməz ana, dəyişər.
Xamilyondu, andan-ana dəyişər,
Deməsələr nəfəsini dər, kişi,
Kişi olmur şalvar geyən hər kişi.

Mən Ramizəm, sözüm hədyan, boş olmaz,
Səxasızın duz-çörəyi nuş olmaz.
Əsli yoxsa, kişilərə qoşulmaz,
Toplasa da bir xəzinə zər kişi,
Kişi olmur şalvar geyən hər kişi.

## GÖRÜNDÜ

Mən gedəndə bir balaca kənd idi,
Qayıtdım, gözümə iri göründü.
Qarısı, qocası yaman azalıb,
Orda-burda hərdən biri göründü.

Fağır adam idi Süleyman kişi,
Çoxdan tökülmüşdü ağzında dişi.
Davaynan, şavaynan olmazdı işi,
Oğlu, göz dəyməsin, "diri" göründü.

-Xəmirim əlimdə qalıb, ay bala,
Ağrın alım, bu kötüyü xırdala.
Belə buyurardı Salatın xala,
İndi bir sümük, bir dəri göründü.

Bir zaman ruzili, barlı-bəhərli,
Fatma qarının da qəlbi qəhərli.
Oğlu, qızı gedib olub şəhərli,
Əsaya dirənən əri göründü.

Xanım-xatın gəlin idi Xanpəri,
Sığallı, tumarlı gəzərdi əri.
Xanpəri dünyadan köçəndən bəri,
Köynəyin boynunda kiri göründü.

Satıb kərəntini, atıb yabanı,
Sabir də tərk edib eli, obanı.
Köhnə evlərinin çökmüş tavanı,
Çürümüş dirəyi, tiri göründü.

Qadın ləyaqətli, kişi təpərli,
Solmaz xala üzümüzdən öpərdi.
Həmin darvazadı, həmin çəpərdi,
Həyətdə "şalvarlı pəri" göründü.

Qız-gəlinin fikri-zikri aynadır,
Nə xörək bişirir, nə çay qaynadır.
Bir igid əlində təsbeh oynadır,
Birində nərdtaxta zəri göründü.

Xəngəl istəyimi dedim Əhmədə,
-Gəl Sənəm xalanı salaq zəhmətə.
Dedi: - çoxdan gedib anam rəhmətə,
Alnımda xəcalət təri göründü.

Ay ötüb, il keçib, zaman dəyişib,
Bu kəndin sifəti yaman dəyişib.
Ay Ramiz, cavanlar tamam dəyişib,
Ağbirçək, ağsaqqal yeri göründü.

## BU DÜNYANIN...

Vaxt gələcək, külli-aləm deyəcək:
-Bu dünyanın bir Ramizi var idi.
Dilim deməyəni qələm deyəcək,
Gözlərində qəm dənizi var idi,
Bu dünyanın bir Ramizi var idi.

Zərim versə, pərt eyləməz nərd məni,
Bəxtim gülsə, sındırammaz dərd məni.
Namərd duymaz, xatırlayar mərd məni,
Təmizlərin tər-təmizi var idi,
Bu dünyanın bir Ramizi var idi.

İki balam, iki bürcüm - qalamdı,
Rauf məndən bir nişanə qalandı.
İlahə var, ilahəmdi, balamdı,
Balaların ən əzizi var idi,
Bu dünyanın bir Ramizi var idi.

Ən ağrılı, ən qayğılı anında,
Ömrün, günün əzabkeşi yanında.
Üzqaralıq qorxusu yox canında,
Açıq alnı, ağ bənizi var idi,
Bu dünyanın bir Ramizi var idi.

Zalım qarşısında əyilmədi o,
Zülüm qarşısında əyilmədi o.
Ölüm qarşısında əyilmədi o,
İnsanlığın belə rəmzi var idi,
Bu dünyanın bir Ramizi var idi.

## YAĞIDA AMAN

*(təcnis)*

Gözümün nurunu gözün apardı,
O gözlər ömrümə yağıdı, aman.
Tanrı mənə ürək verib, dərd çəkəm,
Közümə könlümün yağıdı daman.

Boylansa bir oğrun nəzər eşqimə,
Nə altun gərəkdir, nə zər eşqimə.
A bədniyyət, a bədnəzər, eşqimə,
Olmaz sənin kimi yağıda, aman.

İnsansan, mələksən, söylə, ya nəsən?
Bənövşə boynumu əydin yana sən.
Eşq oduna Ramiz kimi yanasan,
Sən də aman dilə, yağı da aman. -